**UOT 070**

# MƏTBUATŞÜNASLIQ TARİXİMİZDƏN
## (Tədqiqatçı alim N.Axundovun tədqiqatları əsasında)

**Q.D.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***journalisim. bsu. edu. az***

*Sovet dövrü tədqiqatçıları arasında tədqiqatçı alim N.Axundovun da özünəməxsus yeri olub. Tədqiqatçı alim ilk dəfə olaraq Azərbaycan satirik jurnalistikasını tədqiqata cəlb edib. Tədqiqatları Sovet dövrünün ideologiyasına uyğun aparılsa da, bu gün onlar mətbuat tariximizdə dəyərli mənbələrdən sayılır. Uzun illər Azərbaycan mətbuatının tədqiqi ilə məşğul olan N.Axundovun əsərləri mətbuatşünaslıq elmimizin inkişafı üçün dəyərli və əhəmiyyətlidir.*

**Açar sözlər:** ictimai məzmun, sovet dövrü, tənqid, ədəbi proses, tədqiqatçı

Bir əsrdən çox tarixə malik olan mətbuatımızın tədqiqi tarixi maraqlı olduğu qədər də, ziddiyyətlidir. Bünövrəsi XIX əsrin ortalarında qoyulan mətbuatımızın tədqiqinə müxtəlif dövrlərdə müxtəlif prizmalardan yanaşmalar, qeyri-obyektiv qiymətləndirmələr olub. Xüsusən də Sovet dövründə rejimin, hakim partiyanın ideologiyasının təsiri və tələbi ilə aparılan araşdırmalar birmənalı olaraq obyektivlikdən uzaqdır. Çünki bu araşdırmalarda ideoloji, siyasi təhriflərə, qərəzlərə yol verilib. Odur ki, son zamanlar bir elm kimi yaranması və formalaşması zəruriyyəti ortalığa çıxan Azərbaycan mətbuatşünaslığının təşəkkülü və formalaşması istər-istəməz diqqəti cəlb edir.

Artıq bir əsrə yaxın tədqiq tarixinə malik olan mətbuatşünaslığımız əslində uzun bir inkişaf yolu kecmişdir. Məsələn, 1920-ci ilədək olan Azərbaycan mətbuat tarixinin araşdırılmasında əsasən H.Zərdabi, F.Köçərli, A.Sur, Ə.Abid, F.Ağazadə, C.Hacıbəyli, M.B.Məhəmmədzadə kimi görkəmli qələm sahiblərimizin məqalə və əsərləri çox qiymətli mənbələrdən sayılır. Onlar mətbuat tarixi və ayrı-ayrı qəzetlər, jurnallar barədə dəyərli tədqiqatlar aparmış, maraqlı bəzən də mübahisəli mülahizələr irəli sürərək mətbuat tariximizin tədqiqi baxımından çox faydalı mənbələr bizə miras qoymuşlar. Bu qiymətli mənbələr milli mətbuatşünaslığımızın tədqiqi üçün çox dəyərlidir.

1920-ci il aprel işğalından sonrakı dövr (əsasən 1980-cı illərin sonlarına kimi) Sovetlər dövründə aparılan tədqiqatlar sırf dövrün ideoloji-siyasi rejiminə uyğunlaşdırılmışdır. Əsasən təhriflərlə, qərəzli, ziddiyyətli fikirlərlə "zəngin" olan bu tədqiqatların yenidən obyektiv araşdırılmasına bir ehtiyac duyulur. Çünki həmin tədqiqat əsərlərinin bir qismi təəssüf ki, ən son elmi-ictimai ehtiyaclarla tam, bütöv şəkildə uzlaşmır. Tədqiqatçı alim professor Ş.Vəliyev demiş: "Bu fikir mövcud elmi irsdən imtina, ona qarşı iddia da deyil. Əksinə, həmin irsə qarşı həssaslıqdan doğan varislik, bizə qədərki araşdırmalara əsaslanmaqla, onları bünövrə, bazis hesab etməklə çağdaş zamanın və tarixi mərhələnin diqtə etdiyi yeni ədəbi-elmi və ictimai suallara cavabdehlik hissinin, duyğusunun təsiri ilə söylənir" (1, 4). Unutmayaq ki, "ictimai quruluş dəyişərkən, həmin dövrün ədəbi, elmi məhsulundan imtina etmək doğru yol deyil" (6, 9).

Odur ki, bu əsərlərin yeni meyarlarla araşdırılmasına, elmi-nəzəri müddəaların saf-çürük edilməsinə, saflaşdırılmasına və yenidən işləyərək zənginləşdirilməsinə böyük bir ehtiyac duyulur. Marksizim-sosializim nəzəriyyəsi əsasında yazılan bu tədqiqatlar obyektivlikdən çox uzaq olduqları üçün mətbuatşünaslığımızın formalaşmasında əsas və etibarlı mənbə rolunu oynaya bilməzlər. Ona görə ki, bu əsərlərdə mətbuatşünaslığımızın tarixi yanlış araşdırılıb. Azərbaycan mətbuatının və mətbuatşünaslığının tarixinə dair sanballı əsərlərin müəllifi olan Ceyhun Hacıbəylinin təbirincə desək: "Səhv ideologiyaya xidmət etdiyi üçün bu "tarix" yaşamadı (2, 67).

Tədqiqatçı alim filologiya elmləri doktoru A.Tahirlinin fikrincə bu illər "mətbuat tarixi biləərəkdən yarımçıq tədqiq və tədris edilirdi ki, bunun da nəticəsində Azərbaycan mətbuat tarixinin tərkib hissəsi olan Cənubi Azərbaycan və mühacirət mətbuatı ilə bağlı yazılar yalnız 1980-cı illərin sonundan KİV-də görünməyə başlamışdır" (9, 26).

Yuxarıda da qeyd etdik ki, sovet dövrü tədqiqatlarının xarakteri məhz bir ideologiyanın, bolşevik, sosialist ideologiyasının təbliğatçısına çevrilmişdi. Təbii, mətbuatımız da sovet ideologiyasının, Kommunist partiyasının siyasi ehkamlarının məngənəsində çapalayaraq totalitar rejimin siyasətini təbliğ edirdi. Sovet dövrünün dəsti-xəttinə uyğun yazılan bu əsərlər haqqında söhbət açmaqda məqsədimiz həmin əsərləri yenidən obyektiv tədqiqata cəlb etməkdir. Qərəzli, obyektivlikdən çox uzaq olan bu əsərlərin müəllifləri H.Şahgəldiyev, S.Əliyev, X.Məmmədov, V.Məmmədov, M.Hüseyn, N.Axundov, X.Rəfiyev, F.Hüseynov, R.Mahmudov, V.Axundov, H.Sərkisov, N.Bağırov və başqa müəlliflərin adlarını çəkmək olar. Əslində Sovet dövründə bütün tədqiqatçılarımız dövrün siyasi rejiminə uyğun tədqiqat aparmışlar. Nəticədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyətdə olan milli ruhlu mətbuatımız amansız bir mövqedə tədqiqata cəlb edilmişdir. Və yaxud bəzi tədqiqatçılarımız həqiqəti söyləməyə cəsarət etmədikləri üçün bu milli ruhlu dövrün mətbuatının öz araşdırmalarında "unutmuşlar".

Belə tədqiqat əsərlərinin müəlliflərindən biri də biblioqraf, filologiya

elmləri doktoru, professor, mətbuatşünas alim Nazim Axundov idi. İxtisasca filoloq olan alim uzun illər sovet dövrü mətbuatının tədqiqi ilə məşğul olub.

"Azərbaycanda dövrü mətbuat (1832-1920)", "Azərbaycanda satira jurnalları (1906-1920-cı illər)", "Sənədlərin dili ilə" və s. əsərləri siyasi-metodoloji prinsiplərə əsaslanaraq yazılsa da bu gün tədqiqat mənbəyi kimi qismən faydalıdır. Tədqiqatçı alim əsərlərində dövrü mətbuatı ideya siyasi istiqamətinə görə bolşevik, demokrat, və burjua orqanları adı altında quruplaşdırıb. Doğrudur, nəticə etibarı ilə bu təsnifat müəyyən yanlışlıqlara gətirib çıxarır, lakin mətbu orqanları bu müstəvidə tədqiqata cəlb edilib.

Məsələn, müəllif "Azərbaycanda dövrü mətbuat (1832-1920)" adlı əsərində "Hümmət", "Təkamül", "Yoldaş", "Dəvət-Qoç"u bolşevik, "Molla Nəsrəddin", "Bəhlul", "Zənbur", "Arı", "Kəlniyyət" və "Babayi-Əmr"i demokrat, "Həyat", "Səda, "Tərəqqi", "Açıq söz", "Füyuzat", "Şəlalə", "Dirilik" kimi mətbu orqanlarını isə burja mətbuat nümunələri hesab edirdi (3, 26). Bu yanaşma, təbii ki, müasir tələblər baxımından qüsurludur, obyektiv deyil və qəbuledilməzdir.

Təkcə Azərbaycanın mətbuat tarixində deyil, həm də onun ictimai fikir tarixində mühüm rol oynayan "Kaspi" qəzetinin də tədqiqi müəllifin diqqətindən kənarda qalmamışdı. Çox təəssüflər ölkəmizin 19-cu yüzilliyin sonu, 20-ci yüzilliyin əvvəlləri iqtisadi, mədəni, ictimai-siyasi həyatını öyrənmək üçün dəyərli mənbələrdən biri olan bu qəzeti N.Axundov "ziddiyyətli və liberal-burja məhdudiyyətli mətbuat" (5, 179) adlandıraraq onun haqqında yanlışlıqlara yol verib. Müəllif "Kaspi" qəzetini ideya-siyasi baxımdan çox ciddi tənqid etsə də, sonda "«Kaspi» qəzeti XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimai fikir tarixini öyrənmək üçün mühüm mənbələrdən biri" (5, 179) olduğunu vurğulayırdı.

20-ci yüzilliyin əvvəllərində xalqın milli mənlik şüurunun, siyasi yetkinliyinin formalaşmasında müstəsna xidmətləri olan "Həyat" və "Füyuzat" mətbu orqanlarını ideya-siyasi baxımdan zəif adlandıran tədqiqatçı alim hər iki mətbu orqanının redaktorlarını da çox kəskin tənqid edərək "məsləksiz qələm sahibiləri" adlandırır. Amma onu da qeyd etmək lazımdır ki, Nazim müəllim X.Vəzirov, S.Əliyev, H.Şahgəldiyev, F.Hüseynov kimi mətbuatşünas alimlərdən fərqli olaraq Ə.Mirəhmədov və N.Zeynalov kimi milli ruhlu mətbuatın yaradıcıları olan Ə.Hüseynzadə və Ə.Ağaoğlunu "yumuşaq" tərzdə tənqid etməklə kifayətlənib.

Çünki alim bilirdi ki, Ə.Ağaoğlu və Ə.Hüseynzadə təkcə publisistik fəaliyyəti ilə yalnız jurnalistikamızda deyil, bütövlükdə Azərbaycanda milli mədəniyyətimiz, istiqlalımız və milli təfəkkürümüz tarixində dərin iz qoymuşdu" (8, 6).

N.Axundov Azərbaycan mətbuatı tarixində həm də satirik jurnalistikanın tədqiqatçısı kimi də tanınıb. "Azərbaycanda satira jurnalları (1906-1920-ci illər)" adlı əsər də müəllif "Molla Nəsrəddin" jurnalından başlayaraq bu illər ərzində Azərbaycanda nəşr olunan jurnalların fəaliyyətindən, mövzu dairə-

sindən, sənətkarlıq xüsusiyyətlərindən, dil-uslubunda geniş məlumat verib. Alimin bu əsərində də kommunist ideologiyasının təsiri açıq-aydın özünü büruzə verir. "Qeyd etmək lazımdır ki, müsavat ağalığı illərində "Şeypur" (1918-1919) və "Zənbur" (1919) kimi əksinqilabi mahiyyət daşıyan, burjua mülkədar hökümdarlığını müdafiyə edən "Gülgü" jurnallar da olmuşdur ki, onlar barədə müfəssəl danışmağı məqsədə uyğun bilmədik" (4, 6).

Halbuki, alimin haqqında söz açmağı məqsədə uyğun bilmədiyi bu jurnallar tədqiq etdiyi (yalnız "Molla Nəsrəddin" istisna olmaqla"), "Bəhlul"( 1910), "Zənbur" (1909-1910), "Mirat" (1910), "Arı" (1910-1911), "Kəlniyyət" (1912-1913) və s.jurnallardan istər məzmun, istərsə də ideya-siyasi baxımdan heç də az əhəmiyyətə malik deyil və mətbuatımız tarixində çox mühüm rol oynayıblar. Sadəcə "Şeypur" və "Zənbur" Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını dəstəklədiyi üçün uzun illər sovet dövründə tədqiqatdan kənarda qalaraq qarayaxmalara məruz qalmışdı.

Unutmaq olmaz ki, alimin tədqiqata cəlb etdiyi jurnalları da və "Şeypur", "Zənbur"u da mollanəsrəddinçilər ərsəyə gətirmişdilər. Eyni üslub, eyni dəsti xətt. Bəs onda hörmətli alim bu jurnalları nə üçün "gülgü" adlandıraraq tənqid edirdi? Yalnız və yalnız siyasi idologiya baxımından. Təbii ki, belə faktlar əsərdə onlarladı. Ona görə də onların hamısını sadalamağı lüzum bilmədik.

Tədqiqatçı alimin "Azərbaycanda dövrü mətbuat" əsərində o dövrün mətbu orqanlarının biblioqrafiyası verilib. Lakin onları əksəriyyətinin nəşrə başlama və nəşri dayandırma tarixləri yanlış verilib, sayları arxivdəki sayları ilə ziddiyyət təşkil edir. Belə mətbu orqanlarından "Əfkari-mütəəllimin" və "Övraqi-nəfisə" jurnallarının, "Açıq söz" və "İstiqlal" qəzetlərini misal göstərmək olar.

Məsələn, "Əfkari-mütəəllimin" jurnalının birinci və ikinci saylarında göstərilən tarixlərdə səhvə yol verilib. Belə ki, birinci sayda "N-1, 4 şaban 1337" göstərildiyi halda, sonrakı saylarında "1335"-ci il qeyd edilib. Burada səhv olaraq 7 əvəzinə 5 rəqəmi düşüb və nəticədə 1335-ci il gedib. Qeyd edək ki, 1335-ci ili Şərq təqviminə çevirəndə 1917-ci ilə düşür. Jurnal isə 1919-cu ildə çap olunub. Bunu təsdiq edən faktlardan biri də odur ki, jurnalın 1-ci və 2-ci saylarında "İdarənin fəaliyyəti" adlı "Gəncə müəllimlər cəmiyyəti"nin aylıq hesabatı çap olunub və hesabatın sonunda iclasın keçirildiyi tarix belə qeyd edilib: "Gəncə, 8 mart 1919-cu il" (7).

Bundan əlavə jurnalın məzmunu ilə tanış olduqda onun Azərbaycan Xalq Cümhuriyyətinin bərqərar olduğu bir dövrdə fəaliyyət göstərdiyinə şübhə qalmır. Buradan belə bir nəticəyə gəlmək olur ki, mətbuatşünas alim həmin mətbu orqanlarının əksəriyyətini görmədən və yaxud da səhv informasiya verən mənbələrə istinad edib yazıb. Məsələn, "Azərbaycan Sovet Ensiklopediya"sında "Açıq söz" qəzetinin nəşr tarixi və sayları düzgün verilmədiyi halda bu səhvi N.Axundov da öz əsərində təkrarlayıb.

Əsərlərində birmənalı olaraq bolşevik mətbuatının ideologiyasını dəstəkləyən mətbu orqanlarına geniş yer verən və onların fəaliyyətini yüksək

qiymətləndirən, digər mətbu orqanlarının isə "Gülgü", "Burjua", "ideya-siyasi istiqaməti zəif" mətbuat adlandıran müəllifin əsərləri sırf ideologiyanın metodoloji və ideoloji rinsiplərinə uyğun yazılıb.

Sovet dövrü Azərbaycan jurnalistikasını öyrənən digər tədqiqatçılar kimi N.Axundov da, bir qayda olaraq Cümhuriyyət dövründə fəaliyyət göstərən milli ruhlu mətbu orqanlarını "Gülgü", "zərərli" və s. adlandırırdı.

Ümumiyyətlə, Sovet dövründə Azərbaycan Xalq Cümhuriyyəti bu dövrün tarixşünaslığında bir dövlət kimi qəbul edilmədiyindən yazılan əsərlərdə 1917-1920-ci illərdə Azərbaycanda baş verən bütün hadisələr bolşevik partiyasının fəaliyyəti ilə bağlıdır. Tədqiqatçılarımızın bu biristiqamətli fəaliyyəti 1980-cı illərin sonlarına kimi davam etdi. 1990-cı illərin əvvəllərindən başlayaraq başqa sahələrdə olduğu kimi mətbuatşünaslığımızın tədqiqi ilə bağlı yeni istiqamət və əsərlər yaranmağa başladı. Bu yeni yaranan tədqiqat əsərləri mətbuat və mətbuatşünaslıq tariximizdə önəmli yer tutur.

Unutmaq olmaz ki, söhbət açdığımız tədqiqat nümunələri sovet dövründə aparılan tədqiqat işləridir. Bunun əsas səbəbi də dövrün ədəbi nümunələrinin sovet, yaxud kommunist ideologiyasının ruporuna çevrilməsindən irəli gəlirdi. Sözsüz ki, Sovet ədəbi tənqidi, ədəbiyyatşünaslığı, mətbuatşünaslığı uzun illər ədəbi mühitimizə yalnız sosrealizm metodologiyasını tətbiq edib. Lakin zaman keçdikcə bu qeyri-obyektiv qiymətləndirmə özünü büruzə verir və həmin dövrə yenidən, düzgün, obyektiv yanaşmağı və qiymətləndirməni tələb edir.

Hazırda sovet ideologiyasının, Kommunist partiyasının siyasi ehkamlarının məngənəsindən xilas olan Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərə sahib olmaq, onları daha da zənginləşdirmək mühüm vəzifələrdəndir. 70 il ərzində insanların alışdıqları həyat və düşüncə tərzindən birdən və birmənalı uzaqlaşmaq, imtina etmək, əlbəttə, qeyri-mümkündür. Söz, mətbuat azadlığı, digər demokratik dəyərlər mühitə tədricən sirayət edir, cəmiyyətdə çətinliklə bərqərar olur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan mətbuat antologiyası. 2 cilddə. I c. Bakı: Elm və Təhsil, 2010, 437 s.
2. Azərbaycan mətbuat tarixi antologiyası. 2 cilddə. II c. Bakı: Elm və Təhsil, 2011, 439 s.
3. Axundov N. Azərbaycanda dövrü mətbuat (1832-1920). Bakı: Azərbaycan EA, 1965, 150 s.
4. Axundov N. Azərbaycanda satira jurnalları (1906-1920-ci illər). Bakı: Azərbaycan EA, 1968, 270 s.
5. Axundov N. Sənədlərin dili ilə. Bakı: Yazıçı, 1980, 180 s.
6. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: 2010, 434
7. "Əfkari-mütəəllimin" jurnalı, 8 mart 1919
8. Hüseynov Ş. Əhməd bəy Ağayev. Bakı: Elm, 1999, 210 s.
9. Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı: 2005, 527 s.

**ИЗ ИСТОРИЙ ПЕЧАТОВЕДЕНИЯ**

**Г.Д.ГУЛИЕВА**

**РЕЗЮМЕ**

Творчество выдающегося деятеля истории печати Азербайджана всегда находились в центре внимание. Осноная цель научной статьи изучене творчества. Одним из тех ученых следователей, кто вложил больше труда в исследование азербайджанской литературы и прессы считается N.Ахундов. Современность анализируются как эстетическая категория в драмах связанных с историческими и личностями. Творчество выдающего деятелу истории печати Азербайджана N.Ахундов всегда находилось в центре внимоние. Н.Ахундов посвятил 60 лет своей в эту трудную и ответственную работу. Работы посвященные истории Азербайджанской прессы сегодня считается самыми надежными источниками для изучения развития нашей журналистики.

**Ключевые слова:** историк, критика, неследовоние, советский период, литературный процесс

**FROM THE HİSTORY OF PRESS STUDİES**

**G.D.GULIYEVA**

**SUMMARY**

One of the researcher - scientists who has contributions in researching of Azerbaijani literature and press is N.Akhundov. N.Akhundov devoted more than 60 years of his life to this difficult and responsible work. His works dedicated to the Azerbaijani culture are reliable sources for learning the development and history of our journalism. As we know, the profession of jurnalist is difficult, risky and requires a lot of responsibility. The formation of professional ethics of journalism in Azerbaijan goes far back to the XX century. Later, our writers followed this principle as well.

**Key words:** literary process, social contact, social problem, critique, historian